# HEYDƏR ƏLİYEVİN AQRAR SİYASƏTİ

**Məmmədov Q.Ş.**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*garibmammadov1@gmail.com*

Ulu öndər ölkəmizə rəhbərlik etdiyi 45 ildən artıq bir dövrdə bizə yalnız vətənə və xalqa misilsiz xidmətin nümunəsini öyrətmişdir. Onun uzaqgörən, müdrik siyasəti Azərbaycanı keçmiş ittifaqın ən inkişaf etmiş respublikaları sırasına çıxardı. Məhz o illərdə SSRİ-nin tərkibinə daxil olan 15 müttəfiq respublikalar içərisində iqtisadi göstəricilərinə görə Azərbaycan 14-cü yeri tutmaqla yalnız Tacikistandan irəlidə idi.

1970-ci ildə Heydər Əliyev "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" SSRİ Nazirlər Soveti tərəfindən qərar qəbul etdirməyə nail oldu və bir sıra konfranslar keçirildi: 1970-ci ildə "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında"; 1975-ci ildə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında"; 1976-cı ildə Azərbaycan SSR-də irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında"; 1979-cu ildə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək haqqında".

"Torpaq islahatı haqqında" Azərbaycan Respublikası Qanununun 1996-cı ildə qəbul edilməsinə baxmayaraq, bu məsələnin təməli, əslində, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi dövrdə, 1992-ci ildə Culfa rayonunun Şurut və Gal kəndlərindəki torpaqların kəndlilərə verilməsi ilə qoyulmuşdur. Torpaq-vətəndaş münasibətlərində həyata keçirilən tarixi və inqilabi hadisənin birinci mərhələsinin yekunlarını ulu öndər Heydər Əliyev olduqca yüksək qiymətləndirərək demişdir: "Biz torpaq islahatının aparılmasında radikal tədbirlərə əl atmışıq. Deməliyəm ki, nəticə idealdır. Özü də bu, hələlik başlanğıcdır".

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ümumxalq müzakirələrindən sonra torpaq islahatı proqramı hazırlandı və bu proqram əsasında islahatların həyata keçirilməsini təmin edən hüquqi baza yaradıldı. Qürurla demək olar ki, ölkəmizdə aparılan torpaq islahatları tarixə "Heydər Əliyev torpaq islahatları" modeli kimi düşdü.

Respublikanın kənd təsərrüfatının inkişafında mühüm nailiyyətlər əldə edilməsinə səbəb olan bu islahatları digər dövlətlərdə həyata keçirilən analoji islahatlardan bu siyasətin müəllifi Heydər Əliyevin müəyyənləşdirdiyi 4 mühüm prinsip fərqləndirirdi.

Birincisi, Azərbaycanda torpaqlar məhz onun təşəbbüsü ilə vətəndaşlara pulsuz olaraq əvəzsiz verildi. Nəticədə 3 milyon 500 minə qədər insan torpaq mülkiyyətçisinə çevrildi. Bu isə yeni, güclü mülkiyyətçilər sinfi yaratmaqla, yeni torpaq-əkinçi münasibətləri formalaşdıraraq, torpaqdan səmərəli və





məhsuldar istifadəetməni şərtləndirdi, torpağa qayğı və doğma münasibəti zəruri etdi.

İkincisi, torpaqların ən yararlısı və keyfiyyətlisi özəlləşdirildi. Başqa sözlə, MDB məkanının digər ölkələrindən fərqli olaraq vətəndaşa yararsız və ya az yararlı torpaqlar deyil, keçmiş kolxoz və sovxozların ən yararlı və münbit torpaqları verildi.

Üçüncüsü, respublikamızın ərazisində yaşayan bütün vətəndaşlara harada yaşamasından və kimliyindən asılı olmayaraq torpaqlardan istifadə və icarə hüququ verildi. Eyni zamanda, Azərbaycanın hər bir vətəndaşı torpaq alqı-satqısı prosesində, torpaqla bağlı müxtəlif müqavilələrin bağlanmasında iştirak etmək hüququ əldə etdi. Başqa sözlə, torpaq əmlakçısına çevrilmiş 3 milyon beş yüz min nəfər subyektdən başqa respublika əhalisinin yerdə qalan hissəsi də torpaq-vətəndaş münasibətlərindən kənarlaşdırıl-madı. Yəni hər bir Azərbaycan vətəndaşı respublikamızda formalaşan torpaqla bağlı yeni mülkiyyət münasibətlərində birbaşa iştirakçı olma hüququ qazandı.

Dördüncüsü, ölkəmizdə Azərbaycan vətəndaşı olmayan fiziki və hüquqi şəxslərə torpağa mülkiyyətçilik hüququ verilməmişdir ki, bu da nəinki mühüm iqtisadi, həmçinin ciddi siyasi əhəmiyyət daşıyır.

Beləliklə, məhz H.Əliyevin sosial-ədalət prinsipinə söykənən yuxarıda qeyd edilən aqrar-iqtisadi siyasətin əsas prinsipləri əsasında formalaşdırılan və 1993-2003-cü illərdə onun 52-dən artıq fərman və sərəncamları ilə qanuniləşdirilən, düzgün icra mexanizmləri ilə həyata keçirilən aqrar siyasətin nəticəsi Azərbaycanda aqrar sahənin gündən-günə inkişafına səbəb oldu.